*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**



# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır | 12 sentyabr 2015-ci il | № 70 (1986) | Qiyməti 25 qəpik

## Komanda Qərargah Hərbi Oyunlarının döyüş atışlı əsas mərhələsi keçirilib

***Sentyabrın 11-də Komanda Qərargah Hərbi Oyunlarında döyüş atışları icra olunmaqla əsas mərhələ keçirilib.***

İrimiqyaslı təlimlərin ssenarisinə əsasən, bir neçə hissədə yerinə yetirilən əsas mərhələdə qəflətən döyüş hazırlığı vəziyyətinə gətirilən birləşmə və hərbi hissələr təyin olunmuş hədlər istiqamətində hərəkət, düşmən qüvvələrinə aviasiya zərbələrinin endirilməsi, onun hərəkət edən qüvvə və vasitələrini məhvetmə, əks-hücum həddinə çıxma və əks-hücum əməliyyatı keçirmə, ikinci eşelonun hücuma yeridilməsi və taktiki hava desantının düşmən dərinliyinə endirilməsi tapşırıqlarını icra ediblər.





Təlimlərdə iştirak edən bütün qoşun növlərinin döyüşə hazırolma və döyüş qabiliyyəti, tapşırıqlarının yerinə yetirilməsinin operativliyi və səmərəliliyi, qarşılıqlı fəaliyyətin və təminatın təşkili, qarşıya qoyulan tapşırıqların icrası yoxlanılıb.

Təlim poliqonunda motoatıcı və tank bölmələri, raket və artilleriya qurğuları, zenit-raket kompleksləri, döyüş təyyarə və helikopterləri döyüş atışları icra edib, praktiki raket buraxılışları və bombalama həyata keçirilib.

Müdafiə naziri general-polkovnik Zakir Həsənov təlimlərə cəlb edilən şəxsi heyətin peşəkarlığından məmnun qalaraq, tapşırıqların müvəfəqiyyətlə icra edilməsini yüksək qiymətləndirib.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**





## Azərbaycan Prezidenti İlham ƏLİYEV:

## Dağlıq Qarabağ əzəli Azərbaycan torpağıdır

***"Bu gün qəbul edəcəyimiz Bəyannamədə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı çox dəyərli fikirlər var. Bu sənəddə beynəlxalq hüququn norma və prinsipləri öz əksini tapır".***

Bu sözləri Prezident İlham Əliyev Astanada Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının (TDƏŞ) V Sammitində çıxışı zamanı bildirib.

Regional təhlükəsizlik məsələlərindən danışan İlham Əliyev Zəngəzurun Ermənistana verilməsindən sonra bütün türk dünyasının coğrafi bağlılığının aradan qaldırıldığını vurğulayıb:

"Dağlıq Qarabağ əzəli Azərbaycan torpağıdır. Əsrlər boyu Azərbaycan xalqı bu torpaqlarda yaşamışdır, yaratmışdır. Nəinki Dağlıq Qarabağ, eyni zamanda, qədim türk torpağı olan Zəngəzur da bizim əzəli torpağımızdır. XX əsrin əvvəllərində Zəngəzuru Azərbaycandan ayırıb Ermənistana verməklə, əslində bütün türk dünyasının coğrafi bağlılığını artıq aradan götürüblər. Bizim bağlılığımız, təbii ki, gündən-günə güclənir. Amma coğrafi baxımdan biz bir-birimizdən ayrıyıq.

Azərbaycan xalqına qarşı ədalətsizliklər olmuşdur və XX əsrin sonlarında da ədalətsizliklər olmuşdur. Bu gün beynəlxalq birlik tərəfindən Azərbaycanın ayrılmaz hissəsi kimi tanınan Dağlıq Qarabağ və ətraf yeddi bölgə erməni işğalı altındadır. Ermənistan bütün hüquq normalarını kobudcasına pozub, bu bölgələrdə etnik təmizləmə siyasəti aparıb, bir milyondan artıq azərbaycanlı öz doğma torpağında qaçqın, köçkün vəziyyətinə düşüb".

Prezident BMT Təhlükəsizlik Şurasının Dağlıq Qarabağ münaqişəsi ilə bağlı mövqeyindən də danışıb:

"Beynəlxalq təşkilatlar bu məsələ ilə bağlı öz fikirlərini bildirmişlər. BMT Təhlükəsizlik Şurası dörd qətnamə qəbul etmişdir ki, orada Ermənistan silahlı qüvvələrinin Azərbaycan torpaqlarından qeyd-şərtsiz çıxarılması tələb edilir. Əfsuslar olsun ki, Ermənistan buna məhəl qoymur, işğalı davam etdirir, danışıqlar prosesində özünü səmimi və konstruktiv aparmır. Bu münaqişə və bütün başqa münaqişələr ancaq beynəlxalq hüququn norma və prinsipləri, ölkələrin suverenliyi, sərhədlərin toxunulmazlığı və ərazi bütövlüyü əsasında öz həllini tapmalıdır".

**AZƏRTAC-ın materialları əsasında**

## Senator Sercio Divina:

## İtaliya-Azərbaycan münasibətləri yüksək səviyyədədir

İtaliya parlamentinin Azərbaycanda səfərdə olan nümayəndə heyəti sentyabrın 9-da Milli Məclisin beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin üzvləri ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, komitənin sədri Səməd Seyidov görüşdə Azərbaycan-İtaliya əlaqələrinin inkişafından danışıb. O, beynəlxalq təşkilatlarda əməkdaşlığa toxunaraq Azərbaycana dəstək verdiyinə, xüsusilə də ölkəmizin ərazi bütövlüyünü dəstəklədiyinə görə İtaliyaya təşəkkürünü bildirib. Komitə sədri parlamentlərarası əlaqələrin də yüksək səviyyədə olduğunu söyləyib.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsindən söz açan S.Seyidov BMT Təhlükəsizlik Şurasının münaqişənin həlli ilə bağlı qəbul etdiyi dörd qətnamənin işğalçı Ermənistan tərəfindən yerinə yetirilmədiyini təəssüflə vurğulayıb. Diqqətə çatdırılıb ki, bu münaqişə nəticəsində Azərbaycanın ərazisinin 20 faizi hələ də Ermənistan silahlı qüvvələrinin işğalı altındadır, bir milyondan artıq azərbaycanlı öz ölkəsində qaçqın və məcburi köçkün vəziyyətində yaşayır.

Komitənin sədr müavini Sevinc Fətəliyeva, üzvü Asim Mollazadə görüşdə çıxış edərək son vaxtlar Azərbaycan-İtaliya münasibətlərinin möhkəmləndirilməsi istiqamətində görülən işlərdən bəhs ediblər.

İtaliya-Azərbaycan parlamentlərarası dostluq qrupunun sədri, senator Sercio Divina ölkələrimiz arasında münasibətlərin yüksək səviyyədə olduğunu qeyd edib. Azərbaycan ilə İtaliya arasındakı münasibətləri dostluq və tərəfdaşlıq əlaqələri kimi dəyərləndirən senator ölkəsinin ikitərəfli əməkdaşlığın bundan sonra da dərinləşdirilməsi əzmində olduğunu vurğulayıb. Senator TAP layihəsinin həyata keçirilməsi istiqamətində əməkdaşlığın bundan sonra da davam etdirilməsinin vacibliyini diqqətə çatdırıb. Dostluq qrupunun sədri Dağlıq Qarabağ münaqişəsinə həssaslıqla yanaşdıqlarını söyləyib. O, birinci Avropa Oyunlarının yüksək səviyyədə təşkilinə görə Azərbaycanı təbrik edib.

Senator bildirib ki, Azərbaycanın İtaliyada tanıdılmasında Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın böyük rolu var. O, incəsənət nümunələrinin bərpa edilməsində İtaliyaya xeyli yardım edildiyini deyib, Mehriban Əliyevaya təşəkkürünü bildirib.

Sercio Divina, həmçinin, Azərbaycandakı mövcud tolerantlığın, multikultural mühitin dünya ölkələri üçün nümunə olduğunu vurğulayıb.

## Rusiya telejurnalisti:

## Azərbaycanın Rusiyadan praktiki olaraq bircə xahişi var...

***Rusiya telejurnalisti, keçmiş siyasi şərhçi və Rusiya televiziyasının Birinci kanalının Vaşinqton bürosunun başçısı, MDU-nun professoru Vladimir Suxoy Rusiya-Azərbaycan münasibətlərinin bugünkü vəziyyətini "Moskva-Baku" portalına müsahibəsində təhlil edərək bildirib ki, Rusiya Azərbaycan ilə hərtərəfli əməkdaşlığa maraq göstərir. Onun sözlərinə görə, "Azərbaycan Rusiya ilə yaxınlaşmaq istəyini hər vasitə ilə nümayiş etdirir, amma son vaxtlar getdikcə daha çox polyarlaşan güc mərkəzləri arasında balansı və siyasi tarazlığı qoruyub saxlamaq istəyir".***

V.Suxoy hesab edir ki, Bakının prioritetləri yetərincə şəffafdır. Jurnalist deyib: "Azərbaycan bir çox sahələrdə bərabərhüquqlu əməkdaşlığın hər hansı variantını nəzərdən keçirməyə hazırdır, amma onun başlıca ümidi Moskvanın Dağlıq Qarabağ münaqişəsinin həllinə real köməyidir. Azərbaycanın Rusiyadan praktiki olaraq bircə xahişi var: işğal olunmuş ərazilərin azad edilməsi məqsədi ilə Kreml Ermənistana real təsir göstərsin. Sergey Lavrovun Bakıda Qarabağ münaqişəsinin nizama salınmasında irəliləyiş ilə bağlı bəzi bəyanatlarının ikibaşlı mənalarına görə, Moskvanı münaqişə edən tərəflərin dəstəkləmədiyi müəyyən yeni təklifləri var. Amma tərəqqi əldə ediləcəyinə möhkəm ümid və ümumi məxrəcə doğru güclü irəliləyiş var.

V.Suxoy əmindir ki, Qarabağ probleminin həllinin yalnız bir variantı var. Jurnalist deyib: "Bu variant ondan ibarətdir ki, Ermənistan öz qoşunlarını tamamilə çıxarır, "DQR" və ona bitişik yeddi rayon üzərində nəzarət Azərbaycana keçir. Bakıda bunu tələb edirlər".

Rusiyalı telejurnalist qeyd edib ki, son vaxtlar ikitərəfli münasibətlər üçün səciyyəvi olan və Sergey Lavrovun Bakıya səfərinin ab-havasını müəyyən edən başlıca məsələ mehriban ünsiyyət, Rusiya ilə Azərbaycan arasında dialoqun səmərəli və uğurlu inkişafına istiqamət götürməkdir. Politoloq xatırladıb: "Qonağı salamlayan Azərbaycan Prezidenti İlham Əliyev deyib ki, RF Prezidenti Vladimir Putinin birinci Avropa Oyunlarının açılış mərasiminə Rusiya Günündə qatılması iki ölkə arasında münasibətlərin yüksək səviyyədə olmasının parlaq göstəricisidir. Sergey Lavrov isə İlham Əliyevə Vladimir Putinin ən səmimi salamını çatdırıb. Sergey Lavrovun nitqində formal protokol tonları əsla müşahidə olunmayıb. Nazir hətta özünün və İlham Əliyevin alma-materi olan MDBMİ-ni xatırladıb və inişil bu universitetin tarixində ilk dəfə onun məzunlarının görüşünün təşkil edilməsi təşəbbüsünə görə Azərbaycan liderinə ürəkdən təşəkkür edib".

Builki yüksək səviyyəli ikitərəfli səfərlərdən və iki ölkənin xarici işlər nazirlərinin görüşlərindən danışan jurnalist bildirib ki, görüş və danışıqların gərgin cədvəli belə qənaətə gəlməyə imkan verir ki, tərəflər hər iki ölkə üçün dönüş xarakteri daşıyan ciddi məsələlərin müzakirəsi ilə məşğuldurlar. V.Suxoy deyib: "Başqa sözlə desək, yetərincə çoxdan formalaşan və demək olar ki, bütün sahələri, o cümlədən siyasi, iqtisadi, energetika, humanitar və hərbi sahələri əhatə edən bu səfərlər ölkələrimiz arasında strateji tərəfdaşlığın ən yaxşı indikatorudur. Azərbaycanın "Russia Arms Expo (RAE)-2015" sərgisinə dəvət olunması S.Lavrovun səfərinin mühüm məqamlarından biridir. "Russia Arms-2015" Beynəlxalq hərbi texnika və hərbi məhsullar sərgisi sentyabrın 9-dan 12-dək Nijni Tagildə keçiriləcək.

Rusiya Bakını Moskvanın inteqrasiya layihələrində görməyə şad olardı, amma bu ssenari üzərində israr etmir. V.Suxoy deyib: "S.Lavrov Azərbaycanın Avrasiya İttifaqına daxil olması perspektivləri barədə suala cavab verərək bildirib ki, Moskva tərəfdaşlarının Avrasiya məkanına maraq göstərməsinə həmişə sevinir. Amma son qərarı onların özü qəbul edir. Azərbaycanın seçiminə belə loyal münasibət göstərir ki, Rusiya Cənubi Qafqazdakı tərəfdaşına həqiqətən hörmətlə yanaşır və bir sıra aktual xarici-siyasi məsələlərə dair Bakının dəstəyini almağa çalışır".

Rusiya XİN-in başçısının Bakıya səfəri zamanı tərəflər razılaşıblar ki, Azərbaycan ilə RF-nin qarşılıqlı münasibətləri mehriban və qonşuluq prinsiplərinə əsaslanır. Politoloq fikrini belə tamamlayıb: "Deməli, Bakı ilə Moskvanın qarşılıqlı fəaliyyət siyasəti bundan sonra da bəzi postsovet ölkələrinin Kreml ilə münasibətlərində bəzən çatışmayan balans, hörmət və başqa tərəfin rəyini nəzərə almaq prinsipləri üzərində qurulacaq".

**AZƏRTAC**

## ABŞ Dağlıq Qarabağda keçiriləcək qondarma seçkilərin nəticələrini tanımayacaq

***Sentyabrın 10-da ABŞ Dövlət Departamentində keçirilən brifinqdə AZƏRTAC-ın bu ölkədəki xüsusi müxbiri Yusif Babanlı bildirib ki, Azərbaycanın işğal olunmuş Dağlıq Qarabağ regionunda Ermənistan tərəfindən yaradılmış qondarma rejim sentyabrın 13-də "bələdiyyə seçkiləri" keçirməyə hazırlaşır. Bununla da Azərbaycan Respublikasının Konstitusiyasını və beynəlxalq hüquq normalarını pozur. Artıq bir neçə ölkə bu qondarma seçkiləri tanımadığı barədə bəyanat verib. Xüsusi müxbir ABŞ rəhbərliyinin keçiriləcək qanunsuz seçkilərə dair mövqeyini bildirməsini xahiş edib.***

ABŞ Dövlət Departamentinin nümayəndəsi Con Kerbi sualı cavablandıraraq deyib ki, rəsmi Vaşinqton Dağlıq Qarabağı müstəqil, suveren ölkə kimi tanımır və bununla əlaqədar olaraq, sentyabrın 13-də keçiriləcək "seçkilər"in nəticələrini regionun hüquqi statusuna təsir göstərən nəticələr kimi qəbul etməyəcək. O, həmçinin bildirib ki, bu qanunsuz seçkilər Dağlıq Qarabağın qəti statusu məsələsini, yaxud Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllinə nail olmaq üçün cari danışıqların nəticələrini heç bir halda irəlicədən müəyyən etmir.

Xatırladaq ki, Ermənistanın təcavüzü nəticəsində Azərbaycan ərazisinin 20 faizi, o cümlədən Dağlıq Qarabağ regionu bu ölkənin silahlı qüvvələri tərəfindən işğal edilib. Müharibə zamanı Ermənistan tərəfindən Azərbaycanın beynəlxalq səviyyədə tanınmış bu ərazilərində qondarma rejim qurulub. ATƏT-in Minsk Qrupu çərçivəsində Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllinə dair danışıqlar aparılır. Təcavüzkar ölkə BMT-nin Təhlükəsizlik Şurasının Ermənistan silahlı qüvvələrinin işğal edilmiş ərazilərdən dərhal və qeyd-şərtsiz çıxarılması, habelə məcburi köçkünlərin doğma yurdlarına qaytarılması üçün şəraitin yaradılmasını tələb edən 822, 853, 874, 884 nömrəli qətnamələrini yerinə yetirməkdən tamamilə imtina edir.

# Silahlı Qüvvələrdə irimiqyaslı Komanda Qərargah Hərbi Oyunları davam edir






Müdafiə naziri general-polkovnik Zakir Həsənov Komanda Qərargah Hərbi Oyunlarının keçirildiyi bölgələrdə səhra şəraitində yerləşdirilən şəxsi heyətin, döyüş texnikasının, aviasiya vasitələrinin, raket və artilleriya qurğularının döyüşə hazırolma və döyüş qabiliyyətini, onların hazırlıq səviyyəsini yoxlayıb.

Hərbi oyunların ssenarisinə əsasən, müharibə şəraitinə uyğun yaradılmış komanda idarəetmə məntəqələri və müxtəlif poliqonlardakı təlim nöqtələrinə baş çəkən Müdafiə naziri şəxsi heyətin, silah-sursatın və döyüş texnikasının təlimlərdə iştirakı, eləcə də tapşırıq və sərəncamların dəqiq icra olunması ilə bağlı müvafiq göstərişlər verib.

Hərbi oyunlar davam edir.

* * *





Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin təsdiq etdiyi plana əsasən keçirilən Komanda Qərargah Hərbi Oyunlarına ehtiyatdan çağırılan hərbi vəzifəlilər də qatılıb.

Sentyabrın 6-dan başlayan hərbi oyunlar çərçivəsində birləşmə və hissələrin səfərbərlik tapşırıqlarının yerinə yetirilməsi səviyyəsini yoxlamaq məqsədilə ehtiyatdan çağırılmış 6.000 nəfərdən artıq hərbi vəzifəli toplanışa cəlb olunub.

Döyüş hazırlığı çərçivəsində bu kateqoriyadan olan şəxsi heyətlə müxtəlif poliqonlarda real müharibəyə yaxın şəraitdə silah və hərbi texnikadan istifadə qaydalarına dair praktiki məşqlər, döyüş atışları, mənəvi-psixoloji hazırlıq və digər ixtisaslar üzrə hazırlıq təlimləri keçirilir.

* * *





Sentyabrın 9-da Müdafiə naziri general-polkovnik Zakir Həsənov təlimlərə cəlb edilən hərbi vəzifəlilərlə görüşüb.

Hərbi hissəyə gələn Müdafiə Nazirliyinin rəhbər heyəti əvvəlcə ulu öndər Heydər Əliyevin burada ucaldılan abidəsini ziyarət edərək önünə gül dəstələri qoyublar.

Müdafiə naziri ehtiyatdan çağırılan şəxsi heyətə təlim toplanışında məsuliyyətlə iştirak etdiklərinə, Vətənin müdafiəsi üçün yenidən xidmətə cəlb olunmağa hazır olduqlarına görə təşəkkürünü bildirərək deyib:

"İlk növbədə Vətən, xalq qarşısında borcunuzu dərk edib çağırışla gəldiyinizə görə sizə minnətdarlığımı bildirirəm. 20 ildən artıqdır ki, torpaqlarımız işğal altındadır və sülh danışıqları heç bir nəticə vermir.

Azərbaycan dövləti daim öz ordusuna qayğı göstərərək gücünü gündən-günə artırır. Düşmənimiz birmənalı şəkildə bilməlidir ki, biz torpaqlarımızın işğalı ilə heç vaxt barışmayacağıq. Danışıqlar bir nəticə verməzsə, gücümüzü göstərərək torpaqlarımızı işğaldan azad edəcəyik.

Təlimlərin ilk mərhələsini yüksək qiymətləndirərək şəxsi heyətin peşəkarlığını xüsusi qeyd etmək istərdim. Təlimlərə ehtiyatda olan hərbi vəzifəlilərin də cəlb olunmasının əsas məqsədi onların döyüş hazırlığının səviyyəsini müəyyən etməkdir. Biz buna böyük əhəmiyyət veririk. Çünki ehtiyatda olanlar ordunun bir hissəsi kimi qəbul olunur. Biz hamımız döyüşlərə hazır olmalıyıq. Bu gün biz sizinlə təlimləri poliqonlarda səhra şəraitində keçiririk. Döyüş atışları icra olunacaq. Döyüş hazırlığını daha yüksək səviyyəyə qaldırmaq üçün siz bu təlimlərdə ciddi iştirak etməlisiniz. Qarşıya qoyulan vəzifələri, verilən tapşırıqları dəqiq yerinə yetirməlisiniz, döyüşlərə hazır olmalısınız".

Nazir əlavə edib ki, ehtiyatda olan hərbi vəzifəlilər bu təlimlərdə iştirak etməklə əvvəllər qazandıqları döyüş vərdişlərini, hərbi ixtisaslarını və təcrübələrini təkmilləşdirməklə yanaşı, ordumuzda olan müasir silahlar, hərbi texnika nümunələri ilə yaxından tanış olmaq, onların istismar qaydalarını öyrənmək imkanı əldə ediblər.

Müdafiə naziri təlimlərin Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin tələb və tapşırıqlarına əsasən yüksək səviyyədə təşkil edilərək keçirildiyini bir daha diqqətə çatdırıb.

Sonra Müdafiə naziri ehtiyatdan çağırılanların qəbulu, yoxlanması və hərbi hissələrə bölünməsi məntəqəsində idarə heyətinin fəaliyyəti, eləcə də şəxsi heyətin vəziyyəti, yeməkxana, yataq, tibb xidmətinin təşkili ilə maraqlanaraq tapşırıq və göstərişlərini verib.

* * *

Komanda Qərargah Hərbi Oyunlarının növbəti mərhələsində irimiqyaslı təlimlərdə iştirak edən müxtəlif tipli hərbi texnikaların müəyyən edilmiş marşrutlar üzrə planlı şəkildə daşınması həyata keçirilib.

"Həyəcan" siqnalı ilə qaldırılan hərbi hissələrin zirehli döyüş texnikaları toplanma rayonlarına çıxarılaraq hərbi daşınmaların tələblərinə uyğun, müəyyən edilmiş normalara riayət edilməklə müvafiq istiqamətlər üzrə qısa müddətdə təlim bölgələrinə çatdırılıb.

Təlimlər sentyabrın 13-dək davam edəcək.

**Müdafiə Nazirliyi
Mətbuat Xidməti**

# Cəbhəyanı bölgədə yeni dağ hazırlığı təlim mərkəzinin açılışı olub







Müdafiə naziri general-polkovnik Zakir Həsənov cəbhəboyu zonada yerləşən ərazidə inşa edilən yeni dağ hazırlığı təlim mərkəzinin açılışını edib.

Mərkəzin infrastrukturu ilə tanış olan Müdafiə naziri ərazidə yaradılan hərbi topoqrafiya, mühəndis, atış, idman şəhərcikləri, minaatanlardan və atıcı silahlardan praktiki atəşlərin yerinə yetirilməsi, dağ taktiki təlimi, dağlıq şəraitdə sağqalma, qayalara dırmanma, su maneələrini qət etmə və digər sahələrə baxış keçirib.

Çətin və yüksək dağlıq şəraitdə yerləşən hərbi hissələrin şəxsi heyətinin peşəkar hazırlığının yüksəldilməsi məqsədilə döyüş hazırlığı planına əsasən mərkəzdə ixtisaslı təlimatçılar tərəfindən döyüş şəraitinə tam uyğunlaşdırılmış, relyefin tələblərinə cavab verən təlim məşqləri həyata keçiriləcəkdir.

**Müdafiə Nazirliyi
Mətbuat Xidməti**

*Xalq və ordu birdir*

# Laçınlılar işğal altında olan torpaqlarımızı azad etmək üçün Ali Baş Komandanın əmrinə hər an hazır olduqlarını bəyan ediblər

***Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin təsdiq etdiyi plana əsasən keçirilən komanda qərargah hərbi oyunları uğurla davam edir. Azərbaycan Ordusunun güc və qüdrətinin, şəxsi heyətin döyüş ruhunun və mənəvi-psixoloji hazırlığının yüksəlməsini nümayiş etdirən bu irimiqyaslı təlimlər xalqımızın vətənpərvərlik ruhunu, orduya və hazırda işğal altında olan torpaqlarımıza böyük qayıdışa inam hissini daha da artırıb.***



Laçınlı məcburi köçkünlərin müvəqqəti məskunlaşdıqları Ağcabədi rayonu ərazisindəki Taxtakörpü qəsəbəsində iki mindən çox sakinin iştirakı ilə keçirilən tədbir xalqımızın orduya, qələbəyə olan inam hissini göstərirdi.

Tədbir iştirakçıları əvvəlcə xalqımızın ümummilli lideri Heydər Əliyevin qəsəbədəki abidəsini və Şəhidlər abidə kompleksini ziyarət ediblər.

Tədbirdə çıxış edən rayon icra hakimiyyəti başçısının müavini Tofiq Mirzəyev bildirib ki, bir neçə gündür davam edən təlimlər Laçın əhalisinin də böyük ruh yüksəkliyinə səbəb olub. Əli silah tutan gənclər, eləcə də müharibə veteranları ordu ilə həmrəyliklərini, Ali Baş Komandanın əmrlərinə hər an hazır olduqlarını bəyan etmək üçün belə bir aksiyanın keçirilməsini xahiş ediblər.

Müəllimlərdən Elməddin Əkbərli, Dağbəyi Abbasov və Eynulla Axundov yeni dərs ilinin başlamasına qısa bir vaxt qalmasına baxmayaraq, müəllim kimi sinif otaqlarına deyil, döyüşçü kimi ön səngərə getməyə hazır olduqlarını tədbir iştirakçılarının diqqətinə çatdırıblar.

Əlil olmasına baxmayaraq Qarabağ müharibəsinin birinci mərhələsində fəal iştirak etmiş döyüşçü Firdovsi Təhməzov bu gün də qəlbinin atəşi ilə döyüşə hazır olduğunu qeyd edib və hamını bir bayraq altında Qarabağ uğrunda birləşməyə səsləyib.

87 yaşlı el ağsaqqalı Məhəmməd Bəxtiyarov Laçına qayıtmayınca ölümə can verməyəcəyini bildirib və ixtiyar çağında da əsgərlərlə bir yerdə döyüşə atılacağına and içib.

Şəhid anası Yasəmən İsmayılovanın dediyi "Şəhidlərin intiqamını almaq vaxtı çoxdan çatıb. Mən də sizinlə birlikdə döyüşə getməyə hazıram!" sözləri tədbir iştirakçılarında kövrək duyğular oyadıb.

Seyid nəvəsi Arif Həsənov əlində bayraq qarşıya çıxaraq gənclər adından and içib ki, biz bu bayrağı tezliklə əzəli və əbədi torpaqlarımızda yenidən dalğalandıracağıq.

Komanda Qərargah Hərbi Oyunlarından tədbirə gələn Müdafiə Nazirliyinin zabiti polkovnik Abdulla Qurbani ordumuzun arxasında bütün xalqın durduğunu və Azərbaycan əsgərinin bundan güc aldığını vurğulayıb. O, ordu ilə xalqın həmrəyliyini yüksək qiymətləndirərək Müdafiə Nazirliyi rəhbərliyinin və Silahlı Qüvvələrin şəxsi heyətinin minnətdarlığını laçınlılara çatdırıb.

Bildirilib ki, sentyabrın 6-dan başlayan hərbi oyunlar çərçivəsində birləşmə və hissələrin səfərbərlik tapşırıqlarının yerinə yetirilməsi səviyyəsini yoxlamaq məqsədilə ehtiyatdan çağırılmış 6 mindən artıq hərbi vəzifəli toplanışa cəlb olunub. Səfərbərlik və Çağırış üzrə Dövlət Xidmətinin yerli idarə və şöbələrinin, icra strukturlarının, hərbi hissələrin qarşısına toplaşan yüzlərlə müharibə veteranı, gənclər nəinki təlimlərə qoşulmaq, eləcə də işğal altında olan torpaqların azad edilməsi uğrunda döyüşlərdə iştirak etmək istədiklərini bildirirlər.

Laçın rayon İcra Hakimiyyətinin başçısı Akif Səlimov diqqətə çatdırıb ki, dünyanın bir çox ölkələrinin iqtisadi, siyasi, hərbi böhranla üzləşdiyi bir dövrdə müstəqil respublikamız tərəqqi və inkişaf yolu ilə inamla irəliləyir, ordumuz gündən-günə qüdrətlənir. "Azərbaycan Silahlı Qüvvələri işğal edilmiş torpaqlarımızı istənilən vaxt azad etməyə hazır və qadirdir. Lakin ölkə rəhbərliyi Dağlıq Qarabağ probleminin sülh, danışıqlar yolu ilə həllini üstün tutur. Əgər düşmən məkrli niyyətindən əl çəkməzsə, o zaman ordu ilə xalqın birliyi öz sözünü deyəcək".

Qarabağ müharibəsi veteranları, gənclər çıxışlarında getdikcə daha da güclənən Azərbaycan Ordusu ilə qürur duyduqlarını və işğal altındakı torpaqlarımızın azad edilməsi uğrunda müqəddəs döyüşlərə hazır olduqlarını bəyan ediblər.

# Ağdamlılar Qələbə bayrağımızın tezliklə işğal altındakı torpaqlarımızda dalğalanacağına əmindirlər





***Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin təsdiq etdiyi plana əsasən keçirilən Komanda Qərargah Hərbi Oyunları uğurla davam etdirilir. İrimiqyaslı hərbi təlimlər bütün xalqımız kimi, Ağdam rayon ictimaiyyətinin də qələbəyə inamının daha da artmasına səbəb olub.***

Bayraq Meydanına toplaşan ağdamlılar bu bayrağın tezliklə işğal altında olan torpaqlarımızda dalğalanacağına əminliklərini bildiriblər.

Tədbir iştirakçıları əvvəlcə xalqımızın ümummilli lideri Heydər Əliyevin abidəsini və Şəhidlər abidə kompleksini ziyarət ediblər.

"Xalq və ordu birdir" şüarı ilə keçirilən tədbirdə qeyd olunub ki, ağdamlılar xalqımızın qəhrəmanlıq salnaməsinə unudulmaz səhifələr yazıblar. Yeddi minədək ağdamlı 1941-1945-ci illərdə Qafqaz dağlarının ətəklərindən Berlinədək şanlı döyüş yolu keçərək faşizm üzərində qələbənin qazanılmasında iştirak edib. Qarabağda ilk atəş səsləri eşidiləndə Ağdam könüllüləri silaha sarılaraq döyüş meydanlarına atılıb, 1000-dən artıq döyüşçü şəhidlik zirvəsinə ucalıb, 1500 nəfər sağlamlığını itirib. Hazırda Silahlı Qüvvələrin qoşun növlərində yüzlərlə ağdamlı hərbi qulluqçu Vətən qarşısında əsgəri borcunu şərəflə yerinə yetirir, xüsusi təyinatlı təhsil müəssisələrində hərbi ixtisaslara yiyələnirlər.

Bildirilib ki, keçirilən irimiqyaslı hərbi təlimlər xalqın döyüş ruhunu daha da artırıb. Hər kəş döyüşə atılmaq, düşmən üzərində qələbə çalmaq əzmi ilə yaşayır. Müdafiə Nazirliyinin son uğurları, hər gün atəşkəs rejimini bir neçə dəfə pozan Ermənistan silahlı bölmələrinin susdurulması, kəşfiyyat-təxribat qruplarının öncədən aşkarlanaraq qarşısının vaxtında alınması hər bir Ağdam sakininin də böyük sevincinə səbəb olub.

Qarabağ müharibəsinin iştirakçısı, "Azərbaycan Bayrağı" ordenli Baxşeyiş Abbasoğlu ağdamlıların bütün cəbhələrdə rəşadət və şücaət nümunələri göstərdiklərini, 16 nəfərin Azərbaycanın Milli Qəhrəmanı fəxri adına layiq görüldüyünü böyük iftixar hissi ilə qeyd edib. O, Qarabağ müharibəsi veteranlarının bu gün də Ali Baş Komandanın hər bir əmrinə hər an hazır olduqlarını vurğulayıb.

Ağdam rayon Gənclər və İdman İdarəsinin rəisi Elnur Əhmədov Ağdam rayonunda da gənclərin vətənpərvərlik tərbiyəsi işinin prioritet məsələlərdən olduğunu bildirib.

Komanda Qərargah Hərbi Oyunlarından tədbirə gələn Müdafiə Nazirliyinin zabiti polkovnik Abdulla Qurbani ordumuzun arxasında bütün xalqın dayandığını və Azərbaycan əsgərinin bundan güc aldığını vurğulayıb. O, hərbi oyunlar barədə tədbir iştirakçılarına ətraflı məlumat verib.

"Azərbaycan Əfqanıstan Veteranları" İctimai Birliyi Ağdam şöbəsinin sədri Rafayıl Zeynalov xalqımızın ümummilli lideri Heydər Əliyevin 1993-cü il noyabrın 2-də xalqa müraciətini xatırladaraq vurğulayıb ki, o vaxtlar ilk olaraq ulu öndərin çağırışına Əfqanıstanda vuruşmuş azərbaycanlı döyüşçülər səs verdilər. 4500-dən çox keçmiş döyüşçü dahi rəhbərin xeyir-duası ilə döyüşlərə yollanıb, onlardan 8-i Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülüb. Bu Milli Qəhrəmanlardan biri də məhz Ağdam rayonunun yetirməsidir.

"Qarabağ Qaziləri" İctimai Birliyinin Ağdam rayon şöbəsinin sədri Şamil Əbilov sağlamlıqlarını döyüş meydanlarında itirsələr də, yenə Vətən uğrunda canlarından, qanlarından keçməyə hazır olduqlarını bəyan edib.

Şəhid Qaryağdı Əhmədovun atası Eldar Əhmədov oğlunun cənazəsi üzərinə sərilən bayraqla mikrafona yaxınlaşaraq deyib: "Qoy hamı bilsin ki, mən iki oğlumla birlikdə döyüşlərə atılacaq və bu bayrağı işğal altında olan əzəli və əbədi torpaqlarımızda dalğalandıraraq şəhidlərimizin ruhunu şad edəcəyik".

Böyük Vətən müharibəsi veteranı Hümbət babanın "Şükür Allaha, artıq düşmənə layiqli cavab verəcək qüdrətli ordumuz, mətin əsgərlərimiz, müdrik və qətiyyətli baş sərkərdəmiz var. İnşallah, mən də tezliklə doğma Ağdamımın azad olunacağı günü görəcəyəm. Daha dünyadan heç bir tamarzım olmayacaqdır" sözləri tədbir iştirakçıları tərəfindən alqışlarla qarşılanıb.

Ağdam rayon İcra Hakimiyyətinin başçısı Raqub Məmmədov rayon ictimaiyyətinin bu təşəbbüsünü yüksək qiymətləndirərək icra aparatı rəhbərliyinin də bu tədbirə böyük həvəslə qoşulduğunu bildirib. Qeyd edib ki, ağdamlılar bundan sonra da Silahlı Qüvvələrimizə arxa-dayaq duracaq və Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin hər bir əmrinə hər an hazır olacaqlar.

Tədbir Üzeyir Hacıbəylinin "Koroğlu" operasının uvertürasının sədaları altında başa çatıb.

**"Azərbaycan Ordusu"**

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

***11 sentyabr 2015-ci il.***

Müdafiə Nazirliyi bildirir ki, erməni silahlı bölmələri cəbhənin müxtəlif istiqamətlərində 60 və 82 millimetrlik minaatanlardan, həmçinin iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini ümumilikdə 133 dəfə pozub.

Ermənistan Respublikası Noyemberyan rayonunun Barekamavan kəndində yerləşən mövqelərdən Qazax rayonunun Qaymaqlı kəndində yerləşən mövqelərimiz atəşə tutulub.

Goranboy rayonunun Talış, Tapqaraqoyunlu, Gülüstan, Tərtər rayonunun Göyarx, Ağdam rayonunun Sarıcalı, Kəngərli, Şıxlar, Mərzili, Cəvahirli, Novruzlu, Şuraabad, Qaraqaşlı, Yusifcanlı, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Horadiz, Qaraxanbəyli, Aşağı Əbdürrəhmanlı, Aşağı Seyidəhmədli, Qorqan, Cəbrayıl rayonunun Mehdili kəndləri yaxınlığında, həmçinin Göygöl, Goranboy, Xocavənd, Füzuli və Cəbrayıl rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

Azərbaycan Silahlı Qüvvələri əməliyyat şəraitini nəzərə alaraq düşmənin atəş nöqtələrinə, mövqelərinə və səngərlərinə 183 atəş zərbəsi endirib.

*Tibb xidməti*



# "Məni bu sənətə Vətənimə layiqli övlad olmaq istəyi gətirib"

***Həkimlik ən şərəfli və məsuliyyətli peşələrdən biridir. Bu peşə fədakarlıq, saf niyyət tələb edir. Çünki burada söhbət insan həyatından, insan taleyindən gedir. Kiçicik bir səhv, ehtiyatsızlıq böyük bir faciəyə yol aça bilər. Bunun üçün də həkim tibb elminin sirlərinə mükəmməl yiyələnməli, müasir tibbi cihazlarla işləməyi bacarmalı, ən əsası isə məsuliyyətli olmalıdır.***

Səhər gözlərini yenicə açmışdı. Baş Klinik Hospitalın həyətindəki yaşıllıq, səliqə-sahman göz oxşayırdı. Ətrafda sakitlik hökm sürürdü. Buradakı şəraitlə, tibbi heyətlə tanış olduqdan sonra yadıma ümummilli liderimiz Heydər Əliyevin vaxtı ilə Gülhanə Hərbi Tibb Akademiyasında olarkən dediyi "Bizim orduda da, bizim ölkədə də bu cür əzəmətli hərbi tibb müəssisəsi olacaqdır" sözləri düşür. Bəli, bu gün bizim qürur duyduğumuz tibbi müəssisəmiz, həkimlərimiz var.

Kardiologiya bölməsində ilk diqqətimi cəlb edən həkimin yanından çıxan xəstənin gözlərindəki ümid, üzündəki razılıq ifadəsi oldu. Əgər xəstə həkimin otağından bu ovqatla ayrılırsa, burada hər şey fikirləşdiyimizdən də yaxşıdır.

Səməd Əlövsət oğlu Səmədli 1977-ci ildə Masallı rayonunda anadan olub. Tibb xidməti mayorudur. 1994-2003-cü illərdə Türkiyə Respublikası Gülhanə Hərbi Tibb Akademiyasında təhsil alıb. 2003-2006-cı illərdə "N" hərbi hissəsində xidmət edib. 2006-2014-cü illərdə Türkiyədə Gülhanə Hərbi Tibb Akademiyasında kardiologiya üzrə uzmanlığı bitirib. Mərkəzi Hərbi Hospitalda Kardiologiya bölməsinin rəisidir. Səməd həkimin nurlu siması, sakit, təmkinli danışığı insanda yaşam həvəsini artırır, xoş sabahlara səsləyir. Üz-üzə gəldiyim xəstənin də gözlərindəki ümidin mənbəyi bu otaqda idi. Həkim bu sənəti seçməsindən danışarkən köks ötürdü, bir anlıq gözlərinin dərinliyinə qəm-kədər kölgəsi düşdü. Müharibənin silinməz izləri onu xəyalən bu otaqdan çox uzaqlara apardı:

"O qanlı-qadalı günlərdə Vətənimə, millətimə layiqli övlad olmaq istəyi məni bu sənətə bağladı. Həkimlik başqa peşələrdən tam fərqli bir sahədir. Gərək həkim mükəmməl olsun, öz üzərində daim çalışsın, təcrübəsini artırsın. Xəstəyə düzgün diaqnoz qoysun, müalicə yollarını dəqiq müəyyənləşdirsin. Bunun üçün də biz davamlı olaraq ölkə daxilində və ölkə xaricində konfranslara, simpoziumlara qatılırıq. Tibbi sahəyə olan xüsusi diqqətin nəticəsidir ki, çox yüksək səviyyəli kadrlar yetişir. Bölmələrimiz ən müasir tibbi avadanlıqlarla təchiz olunub, şəxsi heyət tam komplektləşdirilib. Hər an hərbçilərimizin, onların ailə üzvlərinin və mülki vətəndaşların qulluğunda dayanmağa hazırıq. Vətənimizin hər bir vətəndaşı bizim üçün əziz, qiymətli və dəyərlidir".

**Leytenant**
**Günay TAĞIYEVA,**
**"Azərbaycan Ordusu"**

# Xəbərlər: hadisələr, faktlar

## BMT-nin baş katibi Türkiyədə təhlükəsizlik qüvvələrinə qarşı yönələn hücumları qınayıb



BMT-nin baş katibi Pan Gi Mun Türkiyədə təhlükəsizlik qüvvələrinə yönələn terror hücumları ilə əlaqədar Türkiyə hökumətinə və türk xalqına başsağlığı göndərib.

BMT-nin baş katibi son vaxtlar Türkiyədə təhlükəsizlik qüvvələrinə edilən və onlarca hərbçinin ölümü ilə nəticələnən terror hücumları qınayaraq hadisə qurbanlarının ailələrinə başsağlığı verib. O, Türkiyədə artan terror hadisələri ilə əlaqədar narahatlığını da dilə gətirib.

## İran neft və qaz yataqlarında hasilatı artırmaq üçün "OMV"-nin köməyindən istifadə etməyi planlaşdırır



İran öz neft və qaz yataqlarının hasilatını artırmaq üçün Avstriyanın enerji şirkəti "OMV"-nin köməyindən istifadə etməyi planlaşdırır.

Bu sözləri İranın neft nazirinin müavini Amir Hossein Zamaniniya jurnalistlərə müsahibəsində deyib. O bildirib ki, "OMV" əsas əməliyyatları üçün texnologiyalarını İranda tətbiq etməyə hazırdır. Bu texnologiyalar həm neft, həm də qaz sahələri üçün istifadə olunacaq.

"OMV" müasir texnologiyalardan istifadə etməklə İranın neft və qaz yataqlarının bərpa dərəcəsini ikiqat artırmağa hazır olduğunu bildirib. İran üçün hazırda prioritet məsələ qonşu ölkələrə təbii qaz ixrac etməkdir", - deyə İranın neft nazirinin müavini qeyd edib.

## Süveyş əyalətində qum qasırğalarına görə bir neçə liman bağlanıb



Misirin MENA agentliyi Qırmızı dəniz limanları üzrə baş komitənin nümayəndəsi Əbdülrəhim Mustafaya istinadla xəbər verir ki, Misirin Süveyş əyalətində hava şəraiti ilə əlaqədar dörd liman bağlanıb.

Qeyd edilir ki, qum qasırğaları nəticəsində görünüş pisləşdiyi üçün "Soxna", "Adabiyya", "Zaytiyyat" və "Port Taufik" limanlarında naviqasiya dayandırılıb. Ə.Mustafanın sözlərinə görə, limanların bağlanması haqqında qərar liman işçilərinin və gəmilərin təhlükəsizliyi məqsədilə qəbul edilib və əlverişli hava şəraiti yaranan kimi limanların işi bərpa olunacaq.

## "Bundeswehr" üçün sifariş olunan silahlar qüsurlu çıxıb



Almaniya Müdafiə Nazirliyi tərəfindən ordu üçün sifariş edilən yeni nəsil iki avtomat silahda problemlər aşkarlanıb.

Əvvəlcə G36 tipli hücum tüfəngi hərbə yararsız sayılıb və sonradan MG5 tipli yeni avtomat silahın da nöqsanlı olduğu müəyyənləşib. İstehsalına iki yüz milyon avro xərclənən həmin silahların problemli olması səbəbindən hərbi texnikanın bu tip silahlarla təchiz edilməsi dayandırılıb və tədarük 2016-cı ilədək təxirə salınıb.

## Las-Veqas aeroportunda "British Airways" aviaşirkətinin təyyarəsi yanıb



ABŞ-ın Nevada ştatında yerləşən Las-Veqas şəhərində "British Airways" aviakompaniyasına məxsus təyyarədə baş verən yanğın nəticəsində azı 14 nəfər xəsarət alıb.

"Boeing-777" təyyarəsi beynəlxalq "McCarran" hava limanının uçuş-eniş zolağında alışıb. Hadisə zamanı təyyarənin göyərtəsində 159 sərnişin və 13 heyət üzvü olub. Təyyarə Londonun "Gatwick" aeroportuna uçmağa hazırlaşırmış. Yanğın pilotun təyyarəni uçuş-eniş zolağına döndərməsi zamanı baş verib. Hadisə yerinə gələn yanğınsöndürənlər yanğını tez bir zamanda söndürüb. Sərnişinlər dərhal təxliyyə edilib, xəsarət alanlar xəstəxanaya aparılıb. Həkimlərin sözlərinə görə, yaralıların vəziyyəti yüngüldür və onların əksəriyyəti təxliyyə zamanı xəsarət alıb.

## Tacikistanda xüsusi əməliyyat: generalın daha 7 tərəfdarı saxlanılıb, 1-i isə öldürülüb



Tacikistanın paytaxtı Düşənbə şəhərindən 40 kilometr şərqdə yerləşən Ramit dərəsində keçirilən xüsusi əməliyyat nəticəsində müdafiə nazirinin keçmiş müavini general Abdulhalim Nazarzodun daha 7 tərəfdarı saxlanılıb, 1-i isə öldürülüb. Beləliklə, generalın həbs olunan tərəfdarlarının sayı 72 nəfərə çatıb.

Müdafiə Nazirliyinin nümayəndəsi öldürülən şəxsin saxlanılarkən müqavimət göstərdiyini deyib. Əməliyyat nəticəsində yaraqlılardan 8 avtomat silah, xeyli miqdarda patron və digər döyüş sursatı götürülüb.

Xatırladaq ki, ötən cümə günü yaraqlıların Düşənbə və Vaxdad şəhərlərində bir neçə milis postuna hücumu nəticəsində Daxili İşlər Nazirliyinin 9 əməkdaşı həlak olmuşdu.

**AZƏRTAC-ın materialları əsasında**

